# “Günahkar” təkcə metod deyil...

Akif **MƏMMƏDOV,**

**pedaqoji elmlər namizədi**

“Azərbaycan məktəbi” jurnalının 1995-ci il 1-3-cü birləşmiş nömrəsində professor Bəşir Əhmədovun “Metod şagirdlərin inkişafını onun məqsədinə çevirməlidir” adlı məqaləsi dərc olunub. Müəllimin toxunduğu məsələlər, irəli sürdüyü mülahizələr son dərəcə aktual olduğu və müəyyən hallarda ənənəvi pedaqoji düşüncə tərzini qırıb-dağıtdığı üçün bəzi fikirlərimi söyləmək qərarına gəldim.

Əvvəlcə pedaqoji metod barədə. Məlumdur ki, pedaqoji prosesin məqsədi müəyyənləşəndən sonra həmin məqsədi həyata keçirmək üçün məzmun formalaşdırılır. Məzmunu mənimsətmək üçünsə uyğun vasitələr seçilir. Vasitələrdən necə istifadə isə metoddur. Başqa sözlə, metod – məqsədə çatmaq üçün müəyyən vasitələrin köməyi ilə məzmunun mənimsədilməsi prosesidir. Bu mənada professor çox haqlı olaraq qeyd edir ki, “metodun məzmununa məqsəd, məzmun və vasitələr daxildir”.

Sonra professor B.Əhmədov yazır: “Şagirdin qazandığı keyfiyyətlər, əldə etdiyi bilik və bacarıqlar nəticədir, metod isə onu (nəticəni) törədən səbəb yerində çıxış edir”. Məncə, səbəb yerində təkcə metodu götürmək, necə deyərlər, təkcə metodu “günahlandırmaq” olmaz. Əgər məqsədin həyata keçirilməsi üçün, deyək ki, məzmun düzgün müəyyən edilməyibsə, hansı metoddan istifadə edilməsinə baxmayaraq, nəticə yarıtmaz olacaq. Hər bir fənnin tədrisində və ümumiyyətlə, pedaqoji prosesin qarşısında müəyyən məqsəd dayanır. Nəticə də məhz həmin məqsədə nə dərəcədə nail olunması ilə ölçülməlidir. Məqsədə aparan yol isə təkcə metoddan yox, həm də məzmun və vasitələrdən asılıdır. Usta stul düzəltmək üçün hansı metodlardan istifadə edirsə etsin, seçdiyi məzmun (deyək ki, ağac materialı) və ya istifadə etdiyi vasitələr (alətlər və s.) yararsızdırsa, yaxşı nəticə alınmayacaq...

Professorun təhsilin indiki vəziyyəti ilə bağlı gəldiyi nəticə tamamilə obyektiv nəticədir: “millət intellektual baxımdan təhlükə qarşısındadır!”. Belə nəticənin səbəblərindən biri “kadrlara iş tapşırılarkən onların intellektual səviyyəsi, qabiliyyəti, məsuliyyət hissinin kifayət qədər nəzərə alınmamasıdır”. Deməli, az da olsa, məktəb “intellektual səviyyəsi”, “qabiliyyəti”, “məsuliyyət hissi” olan şəxslər yetişdirib. Kənar amillər (istifadə edilən metodlar yox) gələcək nəslin “daim öyrənmək, axtarışda olmaq meylinə güclü zərbə vurur, adamlarda ruh düşgünlüyü yaradır”. Beləliklə, nəticə heçə enir. Bəs görəsən, göstərilən bu hal nə ilə bağlıdır? Cavabı B.Əhmədovun özünün elmi axtarışlarında və gəldiyi nəticələrdə tapırırq: “Mövcud ictimai münasibətlərin xarakteri, konkret inkişaf səviyyəsi və tendensiyası tərbiyənin ümumi məqsədini müəyyən edən direktiv orqanlar tərəfindən nə qədər düzgün dərk olunarsa, tərbiyənin məqsədi bir o qədər də düzgün dərk edilər” (B.Əhmədov “Pedaqogikadan mühazirə konspektləri”, Bakı, 1983, səh. 22). Demək, səbəbi müəyyənləşdirərək başqa bir amili – ictimai münasibətlərin pedaqoji prosesə təsirini də nəzərdən qaçırmaq olmaz.

Beləliklə, belə hesab edirəm ki, nəticənin acınacaqlı olmasını bir səbəb yox, səbəblər kompleksi törədir.

Başqa bir məsələ haqqında. Uzun müddətdir ki, məktəblərdə, belə bir fikir kök salıb: çətin məsələləri, anlayışları məktəbə gətirmək olmaz. Elmi-pedaqoji fəaliyyətinin bütün dövlərində bu müddəanın əleyhinə gedən B.Əhmədov bu gün də deyir: “... çətinlikləri dərsə gətirməkdən qorxmaq lazım deyil”. 1974-cü ildə çap edilmiş bir əsərində də yazırdı: “Şagirdi şüursuz fəaliyyətdən şüurlu fəaliyyətə keçirmək üçün həmişə onu çətinliklərlə qarşılaşdırmaq, problem situasiyası yaratmaq lazımdır” (“Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları”, Bakı, 1974, səh. 27). Bəli, insanın təkcə beyni deyil, orqanizmi də müəyyən həcmdə çətinliklərlə rastlaşdıqca bərkiyir; pərqu yorğan-döşəkdə bəslənən orqanizmlə isti-soyuğa düşə-düşə bərkiyən orqanizmin möhkəmliyi bir olmaz. İnsan beyni, təfəkkürü də belədir. Biz əlifbamızdakı 32 hərfin öyrədilməsində bəzən problemlərlə rastlaşır, onların daha da sadələşdirilməsində təkid edirik. Ancaq yaponlar təkcə müasir bədii-siyasi-elmi ədəbiyyatı oxumaq

üçün 5000 hərf (işarə, heroqlif) öyrənməli olurlar. Əlbəttə, bunu da nəzərə almaq lazımdır ki, çətinliklər süni surətdə yaradılmamalı və elə səviyyədə olmalıdır ki, şagirdi bezdirməsin, ruhdan salmasın, əksinə, onu maneələri aradan qaldırmağa, "sədləri" aşmağa sövq etsin. Təlimdə çətinliyə alışmayan, bu çətinliklərdən çıxmaq yollarını tapa bilməyən şagird sabah həyatda da ictimai fəaliyyətdə də problemlərdən baş aça bilmir, mürəkkəb məsələlərdə dolaşıb qalır.

Mən də o fikirdəyəm ki, "elmin mübahisəli məsələlərini məktəbə gətirmək yaramaz" müddəası "səhv fikirdir". Hər şeydən əvvəl ona görə ki, bu gün dərsliklərdə öz əksini tapan müddəaların, fikirlərin ən azı doxsan faizi mübahisəlidir. Bir də ona görə ki, mütləq həqiqət yoxdur. Bir vaxtlar həqiqət kimi qəbul edilən onlarla nəzəriyyələr sonralar "yalana" çıxıb. Ancaq bu fikirlə bağlı professorun irəli sürdüyü aşağıdakı hökmün icrasında bir qədər ehtiyatlı olmaq lazımdır: "şagird səhv hökmləri (tərifləri) əzbərləmək deyil, bu hökmlərin hələ dəqiq olmadığını başa düşməlidir". Biz də təriflərin əzbərlənməsinin əleyhinəyik, şüurlu surətdə dərk və tətbiq edilməsinin tərəfdarıyıq. Ancaq bu məsələdə şagirdin psixologiyasını da nəzərə almaq lazımdır: hökmlərin səhv olduğuna inanan şagird, təbii ki, onu öyrənməyə, dərk etməyə də səy göstərməz. Bizcə, məsələ belə qoyulmalıdır: dərslərə bu gün daha çox həqiqət kimi qəbul edilən müddəalar gətirilməlidir. Şagird bilməlidir ki, elmin indiki səviyyəsi filan hökmlərin həqiqiliyini qəbul edir, elmin sonrakı inkişafı onları dəyişə bilər. Professor B.Əhmədovun özünün qeyd etdiyi kimi "müasir təlim reallığın öyrədilməsinə yönəldilməlidir".

***"Azərbaycan məktəbi", 1996, №5-6***